Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# MƏDƏNİ HƏYAT

8 * 2013



# Mündəricat


- Z.Yaqub - Heydər Əliyev ucalığı ... 2
- Ş.Əkbərova - İnkişafa səsləyən tövsiyələr ... 6
- E.Nağıyev - Əməkdaşlığımızın 20 ili ... 9
- P.İlqaroğlu - Qəbələ - Beynəlxalq musiqi meydanı ... 11
- M.Əlizadə - Azərbaycan teatrında Tofiq Kazımov fenomeni ... 12
- A.Abdullayeva - Milli Kitabxananın metodik fəaliyyətinin müasir vəziyyəti və inkişaf perspektivləri ... 15
- F.Xəlilzadə - Halal diləklərin əbədi ünvanı ... 19
- K.Seyidova - Not nəşrləri və səsyazmaları şöbəsi yeni mərhələdə ... 22
- X.Qazaxlı - Kimlər gəldi, kimlər getdi ... 24
- G.Hüseynova - Elektron dissertasiya fondu və onun inkişaf perspektivləri ... 26
- R.Məmmədli - Dünyaşöhrətli rübailər ustası ... 28
- Ə.İsmayılova - XXI əsrin informasiya məkanında oxuculara xidmət ... 32
- S.Əhmədli - Milli Kitabxanada "Oxucu günü" ... 35
- F.Xəlilzadə - Ömür çırağı ... 38
- X.Tahirli - Qayğının təzahürü ... 42
- Y.Vəliyev - Pak və təmiz insan ... 43
- G.Əliyeva-Kəngərli - Bədii irsə dövlət qayğısı ... 48
- G.Tahirli - Yubileylərin görüşü ... 52
- A.Dadaşov - Əfqan mövzusu kinoda ... 56
- A.Babayev - Son görüş ... 61
- A.Babayev - Əbədiyaşar sənətkar ... 62
- M.Çəmənli - Müslüm Maqomayevi xatırlayarkən ... 64
- İ.Tapdıq - İndi o zarafatlar da uzaqdadır ... 70
- T.Məmmədova - Kitab bayramı ... 73
- E.Nağıyev - Məsuliyyət və qayğı ... 74
- R.Şükürov - Mən dünyanın dayısını görmüşəm ... 78
- E.Tağıyev - Həmkarımızın yubileyi ... 79
- V.Səftərov - Rənglərin harayı ... 80
- S.Qəniyev - Sazın-sözün Şərbəti ... 82
- G.Qazaxlı - Öyrətdiyimiz və öyrəndiyimiz uşaqlar ... 84
- E.Cəfərov - "Psixosof" teatr poetikasının konseptual əsasları və bazisli anlayışları ... 88
- Ş.Əkbərova - Amalı bir, arzusu bir gənclər ... 92
- Y.Araplı - Muzeyşünaslıq ... 93
- K.Qurbanova - Vətən ətirli kitablar ... 97
- B.Vətənoğlu - Bağışla Bəhməni, bağışla, dağlar ... 98

# XXI əsrin informasiya məkanında oxuculara xidmət

İnformasiyalı cəmiyyət quruculuğu şəraitində oxuculara kitabxana xidmətinin müasir tələblər səviyyəsinə çatdırılmasının əsas şərti operativliyin təmin olunmasından və xidmət keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

Kitaba, mütaliəyə, informasiya almağa marağı olan hər bir şəxs internetlə təmin olunmuş və kifayət qədər operativ xidmət göstərən informasiya mərkəzinə - kitabxanaya daim ehtiyac duyur. Müasir dövrdə oxucuların informasiya ilə təmin edilməsi, informasiya ehtiyatlarının mühafizəsi kitabxanaların əsas vəzifələrindən biridir. Bütün dünyada kitabxana işi sahəsində baş verən müsbət yeniliklər Azərbaycanda kitabxana işinin müasir vəziyyətinə də öz təsirini göstərməkdədir.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının oxucularının əksəriyyətini təsadüfi tələbatçılar yox, ardıcıl mütaliəçilər təşkil edir. Bunlar elmi mərkəzlərdə, elmi-tədqiqat institutlarında, ali məktəblərdə fəaliyyət göstərən elmi işçilər, tələbələr və müəllimlərdir. Bu qrup insanlar öz ömürlərini bilavasitə elmi-tədqiqatla bağladıqlarından geniş mütaliə etmək, müqayisələr aparmaq, şəxsi təhsil işini ardıcıl davam etdirmək zərurəti qarşısındadırlar.

Kitabxananın oxu zalları elm sahələrinə, oxucu qruplarına, ədəbiyyatın növünə, nəşr dillərinə görə ixtisaslaşmışdır. Oxu zallarında vaxtaşırı yeni ədəbiyyat, əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgiləri təşkil edilir. Oxu zallarının yardımçı fondları oxucu sorğuları əsasında komplektləşdirilir.

Hər bir zalda oxuculara verilən rədd cavablarının uçotu jurnalı vardır və burada oxucular tərəfindən soruşulan və kitabxanada olmayan ədəbiyyatın uçotu aparılaraq fondun yenidən komplektləşdirilməsində istifadə olunur.



Zallarda oxucuların mütaliəsi üçün hər cür şərait yaradılmışdır. Kitabxananın Humanitar elmlər zalında artıq bir neçə ildir ki, Azərbaycan və rus dillərində "Azərbaycan Respublikasının qanunvericiliyi" onlayn məlumat bazası oxucuların istifadəsinə verilmişdir.

Müasir oxucu tələbinə cavab verən bu proqram oxucuların vaxta qənaət etmələrinə kömək edir. Kitabxana kataloqundan istifadə etmədən

oxucu birbaşa məlumat bazasından istifadə edir. Bu bazanı www.qanun http://www.qanun.info - (Azərbaycan dilində) www.consultinq.minimax.az - (rus dilində) internet səhifəsinə daxil olmaqla əldə etmək olar.

Milli kitabxananın tələbələr üçün nəzərdə tutulmuş oxu zalında tələbə gənclərin mütaliəsi üçün hər cür şərait yaradılmışdır. Oxu zalında yardımçı fond bölməsi fəaliyyət göstərir. Bölmənin fondu tələbə gənclərin sorğusu əsasında komplektləşdirilmişdir. Yardımçı fond bölməsində oxuculara istər mövzuya görə, istərsə də ədəbiyyat sorğusuna görə birbaşa xidmət göstərilir. Oxucular burada olan ədəbiyyatları sifariş vermədən birbaşa alır və mütaliə edirlər. Statistik göstəricilərə görə bölmənin yardımçı fondundan gün ərzində orta hesabla 650-700 oxucu istifadə edir.

2011-ci ilə qədər daha çox istifadə olunan kitabların mütaliəsi üçün növbələr yaranırdı. Bu çətinliklərin aradan qaldırılması üçün 2011-ci ildən etibarən yardımçı fond bölməsində mühafizə olunan kitabların elektron versiyalarının yaradılması işinə başlanılmışdır. Bu kitabxana fondunda olan kitablardan daha çox oxucunun eyni zamanda istifadəsinə imkan yaradır.

Dövri mətbuat zalı oxucuların sevimli zalıdır. Bölmənin yardımçı fondunda 4 illik jurnal və 5 illik qəzetlər saxlanılır.2012-ci ildə Azərbaycan dilində 230 adda qəzet, 125 adda jurnal, rus dilində 22 adda qəzet, 20 adda jurnal alınmısdır. Qəzet və jurnalların elektron versiyalarının mütaliəsi üçün oxucular kitabxananın lokal şəbəkəsindən istifadə edirlər. İnformasiyalaşdırılmış cəmiyyətə keçid şəraitində oxuculara xidməti yüksək səviyyədə təşkil etmək kitabxanaçıların peşəkarlığından da çox asılıdır. Oxuculara yeni informasiya texnologiyaları əsasında (kitabxananın kompüterləşdirilməsi, surətçıxarma-çoxaltma texnikası, elektron nəşrlər və s.) xidmətin təşkili sürətlə aparılır. Milli kitabxanada kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində atılan ciddi addımlar nəticəsində oxuculara xidmət işinin müasir növləri tətbiq edilir və bu iş gündən-günə genişləndirilir.

2011-ci ildə kitabxananın Oxuculara xidmət şöbəsində yeni bölmə - Elektron resurslardan istifadənin təşkili bölməsi yaradılmışdır. Bu bölmənin təşkili və oxuculara təqdim etdiyi xidmət növləri geniş oxucu marağına səbəb olmuşdur. Bölmədə oxucu sorğusu əsasında çox qısa müddət ərzində ən çox istifadə olunan kitabların, dövri mətbuat nümunələrinin, dissertasiyaların elektron versiyaları yaradılır və surəti çıxarılaraq oxuculara verilir. Kitabların, dövri mətbuatın, dissertasiyaların elektron versiyalarının yaradılması rəqəmli fotoaparatlar vasitəsilə yerinə yetirilir. Bu da milli kitabxanada mühafizə olunan qiymətli çap əsərlərinin, arxiv materiallarının, nadir fond kitablarının zədələnməsinin qarşısını alır. İstənilən ədəbiyyatın lazım olan səhifələri rəqəmli fotoaparat vasitəsilə çəkilir, işlənir, çap edilərək oxuculara verilir. Eyni zamanda həmin ədəbiyyatın tam elektron versiyaları yaradılaraq kitabxananın lokal kompyuter şəbəkəsinin məlumat bazasına daxil edilir. Bu da ondan gələcəkdə digər oxucuların da istifadə edə bilməsinə şərait yaratmış olur.

2012-ci ildən etibarən kitabxanada oxucular üçün daha gözəl şərait yaradılmışdır. Oxucuların lokal şəbəkədə mütaliəsi üçün müasir tələblərə cavab verən yeni bölmə - Lokal şəbəkədən istifadə üzrə oxu zalı bölməsi açılmışdır. Bölmədə daha çox oxucunun eyni zamanda kitabxananın lokal şəbəkəsində yerləşdirilmiş elektron resurslardan istifadə imkanları artmışdır. Lokal şəbəkədən istifadə üzrə oxu zalı yaradıldıqdan sonra kitabxanada mütaliə üçün yaranan oxucu növbələri azalmışdır.





Bölmədə eyni zamanda 24 kompyuter və 5 elektron kitab vasitəsilə oxuculara xidmət göstərilir və onların sorğuları tam şəkildə ödənilir. Kitabxana xidmətinin inkişafı xidmət sahələrinin həcminin artırılmasını, istifadəçilərə yeni xidmət növləri təklif etməyi tələb edir. Xidmət işində ciddi köməyə ehtiyacı olan oxucularla kitabxanaçının təması çox vacibdir. Bu isə kitabxanaçıdan həm mütəxəssis kimi, həm də ümumi elmi bilik baxımından ciddi hazırlıq tələb edir.

Son illərdə informasiya texnologiyalarının tətbiqi oxuculara xidmət baxımından bir çox prosedurların sadələşdirilməsinə imkan verib. Ölkə başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" artıq beş ildir ki, icra olunur. Proqrama əsasən Milli Kitabxana da Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə sistemli iş aparır. Son iki ildə həyata keçirilən "Avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi" layihəsi oxuculara kitab verilişi prosesində mühüm yenilikdir.

Elektron kataloq,elektron kitabxana xidmətləri kimi oxucuya kitab verilişi prosesi də avtomatlaşdırılmışdır. Oxucu şəxsiyyətini təsdiq edən sənədi təqdim edir, iki dəqiqə ərzində ona elektron bilet verilir. O, artıq qeyd kartoçkasını doldurmur. Elektron bilet ilə avtomatik qeydiyyatdan keçir və elektron kataloqdan sifarişini verir. Oxucu artıq tələbnamə yazmır. Elektron kataloqda istədiyi kitabı seçir, sifariş verir, bir neçə dəqiqə ərzində kitab tapılır və oxucu kitabın olduğu zala dəvət edilir. 2012-ci il dekabr ayının 20-də kitabxanaçıların ümumrespublika müşavirəsi çərçivəsində Milli Kitabxanada "Vahid avtomatlaşdırılmış kitabxana-informasiya sistemi"nin təqdimatına həsr edilmiş tədbir keçirildi. Sistem Belçikanın "ACMİS Qroup" şirkətinin Azərbaycandakı rəsmi nümayəndəsi olan "Ultra" şirkəti tərəfindən tətbiq edilib. İlk dəfə olaraq sistemlə abunə üsulu əyani şəkildə nümayiş etdirildi. Sistemin ilk abunəçilərindən biri mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev oldu. "Avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi" layihəsi oxuculara kitab verilişi prosesində mühüm yenilikdir.

**Layihənin tətbiqi nəticəsində bütün ölkənin vahid informasiya-kitabxana sistemi yaradılacaq və bölgələrdə fəaliyyətdə olan bütün kitabxanalar bu sistemə qoşularaq oxuculara daha səmərəli xidmət göstərəcəklər. Vahid mərkəzləşdirilmiş kitabxana portalında hər bir kitabxananın öz saytı yaradılacaq. Layihə 2013-cü ildən tətbiq olunacaq və daha da genişləndiriləcək.**

● Ədibə İSMAYILOVA,
*M.F.Axundov adına Milli Kitabxananın oxuculara xidmət şöbəsinin müdiri*